

# Biz öz taleyimizin sahibiyik

***İkinci Qarabağ müharibəsində qazanılan şanlı qələbə xalqımızı, onun arzularını, istəklərini bir boy da ucaltdı, ən yüksək mənəvi zirvəyə qaldırdı, monolit birliyimizi möhkəmləndirdi. Azərbaycanı aydın üfüqlərə doğru aparan və dünyaya tanıdan inkişafın əsas hədəfləri 21 il bundan əvvəl müəyyən edilib. 2003-cü ildə Azərbaycanda prezident seçkiləri keçirildi və seçicilər İlham Əliyevin seçkiqabağı proqramında regionların sosial-iqtisadi inkişafının ilk yerdə dayandığını gördülər.***

Dövlətçilik naminə siyasi olimpin xronologiyasına nəzər salaq. Ulu öndər Heydər Əliyev 2003-cü ildə xalq müraciətində demişdir:

- Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.

Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirdi və qısa zaman kəsiyində görülən işlərə yüksək qiymət verdi. Seçicilər gələcək inkişafa, tərəqqiyə, təhlükəsizliyə səs verdilər, həm də seçkilər ədalətli və şəffaf şəkildə keçirildi. Prezident İlham Əliyev bu barədə deyib:

- Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasında prezident seçkiləri keçirilmişdir. Seçkilər Azərbaycan vətəndaşlarının indiyə qədər görünməmiş fəallığı şəraitində azad, ədalətli, demokratik və beynəlxalq standartlara uyğun şəkildə baş tutmuşdur. Bu, ümumi sayı 1000-dən artıq olan beynəlxalq müşahidəçilərin böyük əksəriyyəti tərəfindən də açıq şəkildə etiraf edilmişdir. Eyni zamanda Azərbaycan hökuməti seçkilərin gedişində müəyyən qüsurlara təsadüf olunması faktını da qəbul etdi. Lakin bu qüsurlar ümumilikdə, tendensiya səciyyəsi daşımayaraq, bəzi hallarda təhrikçilik əməllərinin nəticəsi kimi meydana çıxmışdır. Beynəlxalq müşahidəçilərin də qeydə aldığı konkret qanun pozuntuları ilə ələqədar müvafiq araşdırmalar aparıldı. Seçkilərin beynəlxalq standartlara uyğun şəkildə keçirilməsinə aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıqda hazırlanmış və müasir demokratik seçki prinsipləri və normalarını tam şəkildə özündə əks etdirən, müzakirəsinə cəmiyyətin geniş dairələrinin də cəlb edildiyi yeni Seçki Məcəlləsi vasitəsilə möhkəm hüquqi əsas yaradılmışdır. Bu fundamental sənəd seçkilər zamanı saxtalaşdırma və digər pozuntu hallarının baş verməsi ehtimalını heçə endirmişdir. Müsbət amil kimi, yüksək siyasi fəallığa müşahidə olunan seçki kampaniyası dövrünün dinc və sabit mühitlə səciyyələndiyini də ayrıca qeyd etmək lazımdır. Azərbaycan Respublikası Prezidentliyinə bütün namizədlərə öz seçki kampaniyalarını müvafiq şəkildə aparmaq üçün lazımi səviyyədə bərabər imkanlar yaradılmışdır. Beynəlxalq müşahidəçilərin və geniş ictimaiyyətin, o cümlədən bir sıra müxalifət partiyaları təmsilçilərinin də qeyd etdiyi kimi, seçkilər yüksək səviyyədə təşkil olunmuşdur. Həyata keçirilən həmin təşkilati tədbirlər müsbət istiqamətdə mühüm dəyişiklik kimi dəyərləndirilib. Seçki Məcəlləsində təsbit edilmiş dürüst səsvermə prosedurları və qabaqcıl texniki təminat seçki prosesinin azad və ədalətli keçirilməsində böyük rol oynamışdır. Bu baxımdan, Azərbaycanda ilk dəfə məhz 15 oktyabr prezident seçkilərində şəffaf seçki qutularından istifadə olunması, seçki məntəqələrindən səsvermənin nəticələrinin operativ və açıq şəkildə mərkəzə çatdırılması, nəticələrin hesablanmasının şəffaf və sistemli qaydada aparılmaqla avtomatlaşdırılması, məntəqə seçki komissiyalarının protokollarının 24 saat müddətində Mərkəzi Seçki Komissiyası tərəfindən internetə daxil edilməsi xüsusi vurğulanmalıdır. Seçkilərdə əhalinin yüksək iştirak səviyyəsi ölkədə müşahidə olunan demokratik sabitlik və inkişafın obyektiv təcəssümü kimi qiymətləndirilməlidir.

2003-cü il oktyabrın 15-də Azərbaycanda keçirilmiş prezident seçkiləri xalqımızın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlılığına sadiqliyini bir daha sübut etmiş və Azərbaycanda demokratik cəmiyyət quruculuğunda mühüm irəliləyiş olmuşdur. 2003-cü ildən başlayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni iqtisadi siyasət strategiyası həyata keçirilməyə başladı. Dövlət başçısının prezidentlik fəaliyyətində verdiyi ilk fərmanlar da məhz sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların sosial-iqtisadi inkişafı haqqında olmuşdur. Təsadüfi deyil ki, Prezidentlik fəaliyyətinin ilk dövründə İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərman vermişdir. Regionların inkişafına dair uğurla icra edilən I Dövlət Proqramı Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev 14 aprel 2009-cu il tarixli Fərmanı ilə II Dövlət Proqramını - "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etdi. Yeni proqramın hazırlanmasını şərtləndirən əsas məqsəd ölkədə iqtisadiyyatın diversifikasiyasına və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılmasına, əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə nail olmaq idi. II Dövlət Proqramının uğurlu icrası nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması ilə bağlı əhəmiyyətli nailiyyətlər əldə olunmuşdu. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsi və icra müddətinin başa çatması yeni - üçüncü proqramın zəruriliyini ortaya qoydu. 27 fevral 2014-cü il tarixli Fərmanla Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiqlədi. Bu proqram icrası başa çatmış əvvəlki iki proqram çərçivəsində başlanmış işlərin davam etdirilməsini özündə ehtiva edirdi. Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində Ümumi Daxili Məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

2004-cü ildən başlayaraq, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramı çərçivəsində həyata keçirilən fəaliyyət uğurlu nəticələrlə yadda qalıb. Regionlarda quruculuq-abadlıq işləri geniş vüsət alıb, müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələri, sosial infrastruktur obyektləri açılıb, əhalinin məşğulluq səviyyəsi artıb. Regionlarda aqrar sahəyə dövlət tərəfindən göstərilən dəstək tədbirləri gücləndirilib, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasına xüsusi əhəmiyyət verilib. Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasının bir istiqaməti kimi sahibkarlığın inkişafına mühüm önəm verilib, sahibkarlara göstərilən elektron xidmətlərin əhatə dairəsi genişləndirilib. Güzəştli kreditlər hesabına investisiya layihələri maliyyələşdirilib və kiçik sahibkarlığın daha da inkişafı üçün müvafiq tədbirlər görülüb.

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları çərçivəsində son 17 ildə 3300-dən çox məktəb, yüzlərlə uşaq bağçası və tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Ötən ildə qeyri-neft sektorunda ÜDM-in 3,5 faiz, qeyri-neft sənayesində isə 14,3 faiz artmasında regionların da böyük rolu olub. 2019-cu ildə "Regionların sosial-iqtisadi inkişafının dördüncü Dövlət Proqramı" çərçivəsində 7,2 milyard manat vəsait yönəldilib. Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. 2013-cü ildən başlayaraq, regionlarda da "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlamışdır. Respublikanın bölgələrində hazırda 14 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Hazırda Azərbaycan üçün böyük zəfərlə bitən 44 günlük Vətən müharibəsinin nəticəsində işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı Strateji Fəaliyyət Planı həyata keçirilir.

Ulu öndərin rəhbərliyi ilə Azərbaycan bütün təhlükələrdən xilas edildi, qarşıda inkişaf yolu açıldı, tərəqqinin üfüqləri göründü. Ən əsası isə hakimiyyət aparatı möhkəmləndirildi, naşı və təcrübəsiz kadrlar kənarlaşdırıldı, cəmiyyətin nəbzi öz ahənginə qayıtdı. Ümummilli liderin axıra çatdıra bilmədiyi işləri həyata keçirmək üçün 21 il bundan əvvəl böyük bir mücadilə başlandı, inkişaf strategiyası müəyyən edildi, müasir texnologiyaların tətbiqi iqtisadiyyatın davamlı inkişafı üçün aydın yol açdı. 2003-cü ilin payızında seçicilərin böyük səs çoxluğu ilə Prezident seçilən İlham Əliyev hər şeydən əvvəl vətənpərvər olduğunu, torpaq, millət sevgisini, hər bir vətəndaşın Prezidenti olacağını ilk fəaliyyəti dövründə büruzə verdi. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi bir çox yeni reallıqlar yaradıb, ən əsası isə xalqımızın Qarabağ və Şərqi Zəngəzur həsrətinə son qoyulub, işğaldan azad edilmiş ərazilərdə ən müasir texnologiyalarla geniş miqyaslı bərpa və yenidənqurma sürətlə aparılır, qarşıya qoyulan hədəflərə çatmaq üçün böyük bir mücadilə aparılır. Ən qısa müddətdə, heç iki il keçməmiş Qarabağa və Şərqi Zəngəzura keçmiş məcburi köçkünlərin böyük qayıdışı başlayıb. Bu nəhəng quruculuq işlərinə və doğma yurd yerlərinə ləyaqətli qayıdışa cənab Prezident şəxsən özü rəhbərlik edir.

Həqiqətən şərəfli günlər yaşayırıq, ən böyük tarixi hadisələrin şahidi oluruq. 2030-cu ilə qədərki dövr üçün müəyyən olunmuş beş milli prioritetdən biri də məhz işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışdır və bu proses sürətlə davam edir. Qarabağda və Şərqi Zəngəzurda iqtisadi fəaliyyətin canlanması, sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması əsas vəzifə kimi qarşıya qoyulub. Eyni zamanda dövlətimizin başçısı adıçəkilən iqtisadi rayonların "yaşıl enerji" zonasına çevriləcəyini elan edib. Bu istiqamətdə mühüm dövlət sənədləri təsdiq edilib. Bu heç də səbəbsiz deyildir, güclü strateq kimi Prezidentimiz gələcəyi düşünür, dünyanı təhdid edən problemlərə diqqətlə və məsuliyyətlə yanaşır. Məlum olduğu kimi, qlobal iqlim dəyişmələri ciddi narahatlıq doğurur, həyəcan təbili çalınır və dünya alimləri, ekoloqları bildirirlər ki, bununla bağlı təcili addımlar atılmalıdır. Hələ bu çağırışlara qədər Azərbaycanın bərpaolunan enerji mənbələrini inkişaf etdirmək qərarı dövlətimizin başçısının enerji təhlükəsizliyi ilə bağlı cəsarətli və düşünülmüş qərarı və strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl" iqtisadi artım üçün çox böyük təşəbbüs idi. Bir daha vurğulayaq ki, Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yol xəritəsi illər əvvəl cızılıb. Baxın, vaxtilə başqa ölkələrdən enerji idxal edən Azərbaycan indi dünyada enerji ixracatçısı kimi məşhurlaşıb. Gərgin zəhmət, qəbul edilən layihələrin pozitivliyi, tərəfdaşlıq, işbirliyi, etibarlılıq Prezidentimizin gündəlik fəaliyyətinin impulslarıdır, nəhəng layihələrin icra edilməsini həyata keçirmək coşqusudur. Əcnəbi tərəfdaşlar möhtərəm İlham Əliyevin şəxsiyyətinə, sözünə, əməllərinə, səmimiyyətinə çox güvənirlər və məhz buna görə də respublikamızda 300 milyard ABŞ dolları dəyərində investisiya layihələri icra olunur. Qarabağ və Şərqi Zəngəzurda yeni yanaşmalar, ağıllı həllər, modern şəhərsalma uğurla icra edilir və keçmiş məcburi köçkünlərin doğma yurd yerlərinə qayıdışı davam edir. Bir sözlə, Azərbaycan xalqı öz taleyinin sahibidir, heç kəsdən asılılığı yoxdur və heç kəs də burada nəyisə diktə edə bilməz.

**Salman ALIOĞLU,**
**"Respublika".**